“Kim Allah yolunda cihad edəni təchiz edərsə, sanki özü cihad etmişdir. Hər kim Allah yolunda cihad edəni (ailəsinin qayğısına qalmaqda) əvəz edərsə, sanki özü cihad etmiş olar”

Zeyd bin Xaliddən (Allah ondan razı olsun) Allah Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun) belə buyurduğu rəvayət edilir: “Kim Allah yolunda cihad edəni təchiz edərsə, sanki özü cihad etmişdir. Hər kim Allah yolunda cihad edəni (ailəsinin qayğısına qalmaqda) əvəz edərsə, sanki özü cihad etmiş olar”.

[Səhih] [Müttəfəqun aleyhi(əl-Buxari və Musliminsəhih gördüyü hədislər)]

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) xəbər verir ki, Allah yolunda cihad edən kəsin ehtiyac duyulan səfər vəsaitlərini- silah, nəqliyyat, yemək, məsrəf kimi şeyləri təşkil edən adam cihad edənlə ilə eyni hökmdədir və mücahidlərin savabına nail olar. Kim Allah yolunda cihad edən kəsin işlərini öz öhdəsinə götürərsə, o olmadığı müddətcə ailəsinin qayğısına qalmaqda onu əvəz edərsə, o, da Allah yolunda cihad edən kəsin hökmündə olar.

http://www.sunnah.global/hadeeth/az/show/3437